# Uşaq ədəbiyyatı və çağdaş ədəbi proseslər

"Məni elə yerdə dəfn edin ki, məktəblilər hər gün qəbrimin üzərindən keçərkən ruhumu şad etsinlər...".

*Mirzə Həsən RÜŞDİYYƏ.*

Qarşınızda möhtəşəm bir ədəbiyyat xəzinəsi - uşaq və yeniyetmələr üçün yazılmış böyük və kiçik həcmli, süjetli və süjetsiz ədəbiyyat nümunələrindən bir araya gətirdiyimiz Güney Azərbaycan uşaq ədəbiyyatı antologiyası durur. Əminliklə deyə bilərik ki, ədəbiyyatımızın, milli-mədəni irsimizin, eləcə də nəslimizin davamçıları, gələcəyimiz dediyimiz uşaqların sağlam ruhlu, əqidəli, savadlı və hərtərəfli inkişaf etmiş əsl vətəndaş kimi yetişib formalaşması üçün uşaq ədəbiyyatı örnəklərinə bütün zamanlarda böyük ehtiyac olub. Lakin Azərbaycanda uşaq ədəbiyyatının yazılması və nəşri sahəsində həmişə müəyyən boşluqlar özünü göstərib, ümumədəbiyyatdan fərqli olaraq uşaq ədəbiyyatının inkişaf yolu uğurlu, hamar və məhsuldar olmayıb. Uzun əsrlər boyu uşaq ədəbiyyatının inkişafı ləngimiş, "Gülüstan", "Bustan", "Divani-hafiz", "Əbvabül-sinan", "Nanü-halva", "Tarixi-Nadir", "Sərbaz" və s. kitabları müqabilində Azərbaycan türklərinə öz doğma dillərində uşaqların oxuması üçün əsər yaratmağa geniş imkan verilməyib. Ona görə də qədim və orta əsrlər ədəbiyyat xəzinəsi də uşaq oxusu üçün nəzərdə tutularaq yazılan kitablar baxımından kasaddır. Bu mənada, əslində Azərbaycan uşaq ədəbiyyatı məfhumu da yeni dövrə - XIX əsrə aid ədəbi-pedaqoji hadisədir...

XIX və XX əsrin əvvəllərində kifayət qədər ictimai və dini məzmuna, əxlaqi-didaktik pafosa, estetik təsir gücünə malik olan uşaq mütaliəsi nümunələrinin yaranmasına baxmayaraq, bu zəngin xəzinə indiyə qədər toplanaraq bütöv halda araşdırılmayıb, nəşr edilərək xalqa çatdırılmayıb. Təsadüfi deyil ki, bu gün bizim Abbasqulu Ağa Bakıxanov, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Abbas Səhhət, Abdulla Şaiq, Süleyman Sani Axundov istisna edilərsə, onun inkişafı yolunda böyük əmək sərf etmiş Mirzə Nəsrullah, Hacı Səid və Cəlal Ünsizadələr, Həsənəli Ağa Xan Qaradaği, Aleksey Osipoviç Çernyayevski, Səfərəli bəy Vəlibəyov, Əhməd bəy Cavanşir, Məhəmmədtağı Sidqi, Abdulla bəy Əfəndizadə, Mahmud bəy Mahmudbəyov və digər görkəmli nümayəndələri haqqında təsəvvürümüz belə yoxdur. Onların bəzilərinin adlarını eşitmiş olsaq da, əsərlərindən xəbərsizik. Bu mənada uşaq ədəbiyyatımızın inkişaf tarixində, uşaqlar üçün nəzərdə tutulan nəşrlərin mənzərəsində ağ ləkələr sıx-sıx nəzərə çarpır. Lakin bu siyasi ab-hava, ögey münasibət artıq arxada qalıb. Bu gün Vətənin həm Quzeyində, həm də Güney-ində tarixin müxtəlif mərhələlərində xalqın yaratdığı mənəvi sərvəti heç bir istisnaya yol vermədən bütöv halda araşdırıb üzə çıxarmaq, təbliğ edib geniş oxucu kütləsinin mənəvi qida mənbəyinə çevir-mək yazarları, ziyalıları düşündürən əsas məsələlərdəndir. Bu gerçəkliyin mahiyyətini dövrünün böyük aydını, Cənubi Azərbaycanın baş şəhəri Təbrizdən Şərq dünyasına günəş təki doğan görkəmli maarifpərvər, pedaqoq, publisist, ruhani, siyasətçi və mühərrir kimi tanınan Mirzə Həsən Rüşdiyyə isə hələ XIX əsrin II yarısından etibarən dərindən anlayıb.

**(davamı növbəti saylarımızda)**

**Esmira FUAD,**
**filologiya elmləri doktoru.**